# 24 oktyabr Birləşmiş Millətlər Təşkilatı Günüdür

Əlli milyondan çox insanın həyatına son qoymuş İkinci Dünya Müharibəsinin başa çatması ərəfəsində antihitler koalisiyasının əsas üzvləri (SSRİ, ABŞ, İngiltərə) bir daha müharibələrin baş verməməsi üçün dövlətlər arasında münasibətlərin dinc yollarla tənzimlənməsini təmin etmək gücünə malik olan beynəlxalq təşkilat yaradılması qərarına gəldilər.

1945-ci il iyun ayının 26-da 50 dövlətin nümayəndələrinin iştirak etdiyi San-Fransisko (ABŞ) konfransında Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi təsdiq olundu. Həmin nizamnamə 1945-ci ilin oktyabr ayının 24-dən qüvvəyə mindi. Bu tarix BMT günü kimi qeyd olunur. Birləşmiş Millətlər Təşkilatının əsas qərargahı ABŞ-ın Nyu-York şəhərində yerləşir.

Birləşmiş Millətlər Təşkilatının əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. Bundan başqa millətlər arasında dostluq əlaqələrinin inkişafı, sosial tərəqqiyə, insan həyatının və hüquqlarının müdafiəsi səviyyəsinin yüksəldilməsinə yardım etmək də Birləşmiş Millətlər Təşkilatının vəzifələrindəndir.

Hazırda 193 dövlətin təmsil olunduğu BMT-yə Azərbaycan Respublikası 1992-ci ildə üzv qəbul olunmuşdur.

Çox təəssüf ki, Birləşmiş Millətlər Təşkilatının öz Nizamnamə funksiyalarını yerinə yetirməsində də ikili standartlara yol verilir. BMT-nin qəbul etdiyi bəzi qərarlar qısa müddət ərzində yerinə yetirildiyi halda, bəziləri kağız üzərində qalır.

Hələ 1993-cü ildə BMT Ermənistan ordusunun Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd şərtsiz çıxması barədə 4 qətnamə qəbul etsə də, işğalçı dövlət bu qətnamələrin tələblərini yerinə yetirmir və buna görə heç bir cəza almır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev BMT-nin Baş Assambleyasının bu ilin sentyabrında keçirilən 72-ci sessiyasında çıxışı zamanı bu məsələyə toxunaraq demişdir: «Ermənistan 24 ildir ki, BMT-nin Təhlükəsizlik Şurasının qətnamələrinə məhəl qoymur və əfsuslar ki, buna görə cəzalanmır. Təcavüzkara heç bir beynəlxalq təzyiq göstərilmir. Bu ikili standarta əsaslanan yanaşmadır. Bu yanaşma qəbul edilməzdir».

**«Qəbələ»**

# Viruslara qarşı təbii vasitə



***Tərkibi vitamin və minerallarla zəngin olan heyva qədim zamanlardan bir çox xəstəliklərin müalicəsində istifadə olunub. Bu meyvə nə qədər dadlıdırsa, bir o qədər də sağlamlıq üçün faydalıdır. Xalq təbabətində heyvanın gülündən, qabığından və meyvəsinin tumlarından da geniş istifadə olunur.***

✴Heyva C vitamini ilə zəngin olduğundan orqanizmin immun sistemini gücləndirir.

✴Bu meyvənin tərkibində dəmir çox olduğuna görə el arasında qanazlığı deyilən anemiya zamanı olduqca faydalıdır.

✴Heyva mədə və bağırsaqları gücləndirir.

✴Qaraciyərin fəaliyyətini normallaşdırır.

✴Sinir sisteminə müsbət təsir göstərir.

✴Heyva viruslara qarşı mübarizədə ən yaxşı vasitələrdən biridir.

✴Orqanizmin toksinlərdən və zərərli maddələrdən təmizlənməsinə kömək edir.

✴Bu meyvədən müntəzəm istifadə etməklə qanda "pis" xolesterinin miqdarını aşağı salmaq mümkündür.

✴Heyva dərinin sağlam və gümrah qalması üçün də xeyirlidir.

✴Sidikqovucu xassəyə malikdir.

✴Ürək damar sistemi üçün ən faydalı meyvələrdən biridir.

✴Yüksək qan təzyiqini aşağı salmaq üçün istifadəsi əhəmiyyətlidir.

✴İltihablar zamanı, xüsusilə tənəffüs sisteminin iltihabında heyvadan istifadə müsbət nəticə verir.

✴Heyvanın şirəsindən kosmetik vasitə kimi istifadə etməklə üz dərisinin gözəl görünməsinə nail olmaq olar. Bu vasitə yağlı dərilər üçün daha effektlidir.

✴Qəbzliyi olanlar heyvadan məhdudiyyətlə istifadə etməlidirlər.

## İdman xəbərləri

## Qəbələ cüdoçuları regional birinciliyin qalibi olublar

Yeniyetmə cüdoçular arasında İsmayıllıda regional birincilik keçirilib. Azərbaycan Cüdo Federasiyasının dəstəyi ilə təşkil olunan yarışda Ağsu, İsmayıllı, Qəbələ, Oğuz, Qobustan və Şamaxı idmançıları iştirak ediblər.

2004-2006-cı il təvəllüdlü cüdoçular medallar uğrunda mübarizə aparıblar.

Daha çox medal qazanan Qəbələ cüdoçuları birinci yeri tutublar.

Qaliblərə Azərbaycan Cüdo Federasiyasının diplomları, medallar və hədiyyələr təqdim olunub.



# Vergi ödəyicilərinin nəzərinə!

20.10.2017-ci iltarixi aşağıdakı vergi bəyannamələrinin təqdim edilməsinin son günüdür:

✦Əlavə dəyər vergisinin bəyannaməsi.

✦Xüsusi notariusların Gəlir vergisi bəyannaməsi.

✦Sadələşdirilmiş verginin (o cümlədən daşınmaz əmlakın təqdim edilməsi və pul vəsaitlərinin nağd çıxarılması üzrə) bəyannaməsi.

✦Aksiz bəyannaməsi.

✦Yol vergisi bəyannaməsi.

✦Mədən vergisi bəyannaməsi.

✦Muzdlu işlə əlaqədar. ödəmə mənbəyində tutulan vergi (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri istisna olmaqla) bəyannaməsi.

✦Ödəmə mənbəyində (o cümlədən uduş və mükafatlardan) tutulan vergi bəyannaməsi.

✦Dövlət rüsumunun tutulması barədə hesabat.

## "Qəbələ"-"Sumqayıt" görüşü komandamızın qələbəsi ilə başa çatıb

Oktyabrın 14-də futbol üzrə Topaz Premyer Liqasının VIII turu çərçivəsində günün ikinci oyununda "Sumqayıt" komandası "Qəbələ" klubu ilə qarşılaşıb.

Sumqayıtda "Kapital Bank Arena"da keçirilən görüşün ilk hissəsində "Qəbələ" komandası hesabı açıb. Oyunun 29-cu dəqiqəsində Famussa Kone topu qapıdan keçirib.

Qarşılaşmanın ikinci hissəsində "Sumqayıt" təmsilçilərinin təhlükəli hücumlarına baxmayaraq, oyunda hesabı bərabərləşdirmək mümkün olmayıb.

Beləliklə, görüş "Qəbələ"nin 1:0 hesablı qalibiyyəti ilə başa çatıb və komanda aktivindəki xalların sayını 16-ya çatdırıb.

## ELAN

Aydınqışlaq Bələdiyyəsinə mühasib tələb olunur. İşləmək istəyənlər bələdiyyəyə müraciət edə bilərlər.

**Ünvan:** Aydınqışlaq kəndi, tel. **(051) 743 96 70**


QƏBƏLƏ
Qəbələ rayonunun ictimai-siyasi qəzeti

qəzetinə

2018-ci ilin birinci yarısı üçün abunə yazılışına başlanmışdır

İllik abunə qiyməti 30 manat, yarımillik abunə qiyməti 15 manatdır.

Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.

Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 671-06-94.



«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56


## İTMİŞDİR

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 15 may 1998-ci il tarixli 09 saylı qərarı ilə Cığatelli kənd sakini Hacıyev Əhmədiyə Namət oğluna və ailə üzvlərinə verilmiş JN seriyalı 114 nömrəli (kod 40605028) torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Aqrar İslahat Komissiyasının 26 may 1998-ci il tarixli 10 saylı qərarı ilə Bəyli kənd sakini Dursunov Famil Vəlyəddin oğluna verilmiş JN seriyalı 0005 nömrəli kod(40609028) torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin Qəbələ Rayon Ərazi İdarəsi tərəfindən 14 aprel 2012-ci il tarixdə Qaradeyn kənd sakini Yusifov Ərziman Ramazan oğluna verilmiş AA seriyalı 011984 nömrəli (reyestr nömrəsi 4060130104 31) torpaq sahəsnin planı və ölçüsü itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestr Xidməti Qəbələ Rayon Ərazi idarəsi tərəfindən Vəndam qəsəbə kənd sakini Aşırbəyov Natiq Eyvaz oğluna 17 fevral 2009-cu il tarixdə verilmiş MH seriyalı 0013012 nömrəli (reyestr nömrəsi 40601306425, qeydiyyat nömrəsi 1909000514) hüquqları dövlət qeydiyyat haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış və torpaq sahəsinin planı və ölçüsü haqqında AA seriyalı 004078 nömrəli(inventar № 406-46\1054) sənəd itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon Aqrar İslahat Komissiyasının 1998-ci il 26 may tarixli 10 saylı qərarı ilə Məmmədağalı kənd sakini Yaralıyev Allahverdi Hacı oğluna verilmiş JN seriyalı 0072 nömrəli (kod 40603048) torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Komitəsinin yanında Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinin 9 saylı Ərazi İdarəsi tərəfindən Qəbələ şəhər sakini Allahverdiyeva Xoşqədəm Heydər qızına verilmiş AA seriyalı 001081 nömrəli (reyestr nömrəli 406013008816) torpaq sahəsinin planı və ölçüsü sənədi itdiyi üçün etibarsız sayılır.

Qəbələ Rayon Xalq Depututları Soveti İcraiyyə Komitəsinin 30 oktyabr 1990-cı ildə Qəbələ şəhər sakini Xancanov İbrahim Əkbər oğluna həyətyanı sahə ayrılması barədə 30 oktyabr 1990-cı il tarixli 20 nömrəli qərarından çıxarış itdiyi üçün etibarsız sayılır.


Redaktor Varis Yaqubov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər

Məsul katib Qüdrət Səmədov.

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: news@qebele-ih.gov.az

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir. Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149 VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində «Azərmedia» MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

Dizayner Rais Rəşidov

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

Tiraj 1900